AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**NAİLƏ YUSİF QIZI YUSİFOVA**

# AZƏRBAYCAN PALEOTOPONİMLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ

**5706.01 – Azərbaycan dili**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: *filologiya üzrə elmlər doktoru, professor*
**Tofiq Müzəffər oğlu HACIYEV**

**Rəsmi opponentlər:** *filologiya üzrə elmlər doktoru, professor*
**Cəfər Əsəd oğlu CƏFƏROV**

*filologiya üzrə elmlər doktoru, professor*
**Aslan Əhmədxan oğlu BAYRAMOV**

**Aparıcı müəssisə:** **Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsi**

Müdafiə «_15___» __04_ 2016-cı il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2016-cı ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Onomastik vahidlərin müxtəlif mənbələr üzrə öyrənilməsi dilimizin tarixi inkişaf qanunauyğunluqlarını, linqvistik, ekstralinqvistik faktorların təsiri altında formalaşma və dəyişilmə xüsusiyyətlərini aşkara çıxarmaq baxımından böyük əhəmiyyətə malikdir. Xalqın tarixini, onun təşəkkülü və inkişafını öyrənmək, qədim dil xüsusiyyətlərini müəyyənləşdirmək üçün toponimlər, eləcə də paleotoponimlər çox zəngin material verir. İstər Azərbaycanı, istərsə də dünyanın digər ölkələrini toponimsiz təsəvvür etmək mümkün deyil. Çünki toponimlər, paleotoponimlər şəhər və kəndlərin, dağ və buzlaqların, çay və göllərin, körfəz və dənizlərin, meşə və bağların, bir sözlə, bütün coğrafi obyektlərin adlarıdır. Bu coğrafi obyekt adlarının dilçilik baxımından tədqiqi tariximiz üçün həmişə aktual olmuşdur.

XX əsrin 80-cı illərinin sonlarından başlayaraq cəmiyyət həyatında nəzərə çarpan müstəqillik meyilləri Azərbaycan dilinin xüsusi adlar sisteminə yanaşmada, eləcə də onun araşdırılmasında köklü dəyişiliklərə gətirib çıxarmışdır. Bu baxımdan paleotoponimlərin araşdırılmasının səviyyəsi və istiqamətləri daha çox diqqəti cəlb edir. Son illərdə Azərbaycan onomastikasının sırf dilçilik aspektində tədqiqi baxımından mühüm işlər görülmüşdür. A.Qurbanov, A.Axundov, Q.Məşədiyev, V.Əliyev, Z.Xasiyev, M.Adilov, A.Paşa, T.Əhmədov, M.Çobanov, N.Məmmədov, R.Əliyeva, A.Bağırov və digər araşdırıcılar bu problemlə bağlı sanballı tədqiqat əsərləri yazmışlar. Təkcə son 20 il ərzində bu sahədə onlarla dissertasiyalar müdafiə edilmişdir. Azərbaycan onomastik vahidləri həm tarixi-coğrafi baxımdan, həm dil mənsubiyyətinə görə bu gün də diqqətlə öyrənilməkdədir. Mövcud dissertasiya isə həm Azərbaycan dilinin tarixinin müəyyənləşməsi, həm də Azərbaycan dilinin xüsusi adlar sistemində gedən proseslərin izlənməsi, baş vermiş dəyişikliklər gedişində özünü göstərən uğurlu və nöqsanlı cəhətlərin üzə çıxarılması, müvafiq faktların linqvistik təhlili baxımından əhəmiyyətli hesab oluna bilər. Tədqiqat işində Azərbaycan paleotoponimlərinin linqvistik təhlili aparılır, əldə edilmiş faktların tarixi izləri müəyyənləşdirilir, eyni zamanda müstəqillik dövründə Azərbaycan paleotoponimikasının inkişaf xüsusiyyətləri öyrənilir və bu inkişafa dair əldə edilmiş faktlar elmi təhlildən keçirilir.

Xüsusi adlar, eləcə də paleotoponimlər keçmişin izlərini özlərində mühafizə edib müasir zamana kimi gətirən real faktdır, tarixin canlı şahididir. Dilin lüğət tərkibində xüsusi yeri olan toponim və paleotoponimlərin diqqətlə təhlili, elmi şəkildə ümumiləşdirilməsi türk xalqlarının dilinin və

tarixinin bir çox mürəkkəb və zəruri məsələlərinin işıqlandırılmasına böyük kömək edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan paleotoponimlərinin linqvistik təhlilini araşdırmaqdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Xüsusi adların, o cümlədən Azərbaycan paleotoponimlərinin ictimai-siyasi inkişafın məhsulu olduğunu konkret faktlarla müəyyənləşdirmək;
- Paleotoponimləri onların təşəkkülü və inkişafı baxımından təhlil edərkən onların oxşar və fərqli cəhətlərini üzə çıxarmaq;
- Paleotoponimik sistemin inkişafında əsas amil olan və yaxud həmin sistemi şərtləndirən tarixi – ictimai səbəbləri aşkar etmək;
- Azərbaycan paleotoponimlərinin tədqiqi tarixini öyrənməklə onun gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək;
- Azərbaycan paleotoponimlərinin formalaşmasında qədim türk dilinin fonetik, leksik və qrammatik elementlərinin rolunu müəyyənləşdirmək;
- Azərbaycan paleooykonimlərinə xas olan səciyyəvi cəhətləri ortaya çıxarmaq;
- Azərbaycan paleooykonimlərini dil mənsubiyyəti, eləcə də mənşə baxımından araşdırmaq;
- Azərbaycan paleooronimlərinin səciyyəvi cəhətlərini müəyyənləşdirmək;
- Azərbaycan paleooronimlərini dil mənsubiyyəti, eləcə də mənşə baxımından araşdırmaq;
- Azərbaycan paleohidronimlərinin səciyyəvi cəhətlərini müəyyənləşdirmək;
- Azərbaycan paleohidronimlərini dil mənsubiyyəti, eləcə də mənşə baxımından araşdırmaq və s.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan onomastikasında ayrı-ayrı onomastik vahidlərin öyrənilməsi istiqamətində bir çox tədqiqatlar olsa da, Azərbaycan paleotoponimiyasında bu sahəyə aid ayrıca araşdırmalar azdır və onun geniş şəkildə öyrənilməsi zərurəti dilçiliyimizdə hələ də qalmaqdadır. Dissertasiya işinin əsas elmi yeniliyi də məhz bununla bağlıdır. Bu dissertasiya işində Azərbaycan paleotoponimləri ilk dəfə olaraq monoqrafik şəkildə tədqiq olunur. Bundan əlavə, xüsusi adların semantik və etimoloji baxımdan tədqiqi zamanı irəli sürülən bir sıra mülahizələr və əldə olunan elmi nəticələr də işin yeniliyi hesab oluna bilər. Tədqiqat işinin elmi yeniliklərindən biri də ondadır ki, onomastikanın

formalaşma və işlənmə qanunauyğunluqları, həmçinin üslubi xüsusiyyətləri çox aspektli bir şəraitdə eyni bir ərazidə öyrənilir.

**Tədqiqatın metodu və mənbələri.** İşin xarakterindən asılı olaraq dissertasiyada dilçiliyə dair müxtəlif səpkili tədqiqat əsərlərindən geniş şəkildə istifadə olunan təsviri, tarixi-müqayisəli, areal dilçilik (dilçilik coğrafiyası) metodlarından istifadə olunmuşdur. Məlum olduğu kimi, bu metodlar dili tədqiq etməyin bütöv kompleksini özlərində ehtiva edirlər. Onomastik vahidlərə aid yazılmış elmi əsərlər, türk, rus və başqa dillərdə mövcud olan ensiklopedik lüğətlər tədqiqat prosesində əsas mənbə olmuşdur. Araşdırma zamanı nəzəri-metodoloji mənbə kimi onomastika sahəsində tədqiqat aparan Azərbaycan dilçi, tarixçi və coğrafiyaşünas alimlərinin, eləcə də xarici tədqiqatçıların əsərlərinə istinad edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti Azərbaycan ərazisindəki toponimik vahidlər, başqa sözlə desək, Azərbaycan toponimləridir. Bu ərazidəki paleotoponimlər isə tədqiqat işinin predmetini təşkil edir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Azərbaycan paleotoponimlərinə həsr olunmuş bu tədqiqat işi həm nəzəri, həm də praktik əhəmiyyətə malikdir. Belə ki, tədqiqat işində əldə olunan nəticələr tarixi və təsviri onomastika sahəsində aparılacaq gələcək araşdırmalara, Azərbaycan dilinin onomastik sisteminin dövrlər üzrə öyrənilməsi məsələlərinə əhəmiyyətli fayda verə bilər. Dissertasiyada bu işin ümumi istiqamətləri artıq müəyyənləşdirilmişdir. Tədqiqat işi özündən əvvəlki onomastik tədqiqatların davamıdır və gələcək araşdırmalarda Azərbaycan onomastik sisteminin inkişaf qanunauyğunluqlarının, onun digər onomastik sistemlərlə əlaqələrinin aşkara çıxarılmasına kömək edə bilər. Bütün bunlar tədqiqat işinin nəzəri əhəmiyyətə malik olduğunu aydın şəkildə göstərir.

Azərbaycan paleotoponimləri linqvistik baxımdan araşdırılarkən, onların etimoloji təhlili verilərkən zəngin faktlarla müşayiət olunur. Azərbaycan toponimik vahidləri ilə əlaqədar müxtəlif lüğətlərin, məlumat kitablarının hazırlanması zamanı bu faktlardan lazımınca istifadə etmək olar. Ali məktəblərdə, AMEA-nın bir sıra elmi-tədqiqat institutlarında onomastika, eləcə də onun aparıcı sahəsi olan toponimika ilə bağlı bir çox elmi tədqiqat işləri aparılır. Odur ki, həmin onomastik vahidlərlə bağlı dərsliklərin, dərs vəsaiti və metodik göstəricilərin hazırlanmasında, ixtisas kursu və seminarlarının təşkilində bu tədqiqatın nəticələrindən geniş istifadə etmək olar. Eləcə də tədqiqat işi nəzəri mənbə kimi də istifadə edilə bilər, universitetlərin filologiya fakültələrində "Azərbaycan paleotoponimiyası" adı altında ayrıca kurs kimi də tədris oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları kafedranın nəzəri seminarlarında, fakültə, universitet və respublika səviyyəli konfranslarda məruzə edilmişdir. Dissertant mövzu ilə bağlı Azərbaycan və xarici ölkələrdəki müxtəlif jurnal və toplularda məqalə çap etdirmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, tədqiqat işi yazılarkən istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN MƏZMUNU

«Giriş»də araşdırılmaya cəlb olunan mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiqi tarixi, metodoloji əsası, nəzəri-praktik əhəmiyyəti, aprobasiyası və başqa məsələlər haqqında qısa, yığcam şəkildə danışılmışdır.

Dissertasiyanın I fəsli «**Azərbaycan paleotoponimiyasinin aktual problemləri**» adlanır. Bu fəsil iki yarımbölmədən ibarətdir.

I fəslin birinci yarımbölməsi "**Azərbaycan paleotoponimlərinin tədqiqi tarixi və araşdırılma perspektivləri**" adlanır. Azərbaycan xalqının əsasını türk qəbilə və tayfaları təşkil etdiyi üçün dil və etnik cəhətdən qohum olan bu komponentlərin birləşməsindən vahid Azərbaycan xalqı və ümumxalq Azərbaycan dili yaranmışdır. Azərbaycan ərazisində digər qəbilə və tayfalar üçün bu dil ümumünsiyyət vasitəsi olmuşdur. Məhz buna görə də Azərbaycan ərazisində türk qəbilələri ilə yanaşı mövcud olmuş irandilli və qafqazdilli qəbilələr indiyədək də ana dillərini mühafizə edib saxlamışlar.[1] Bu ərazidə qeydə alınmış toponimik adlar Azərbaycan dilinin daha qədimlərdən mövcud olduğunu sübut edir. Xüsusi adların izahına ilk dəfə türkologiyada M.Kaşğarlının «Divanu-luğət it-türk» əsərində rast gəlinir.

«Kitabi-Dədə Qorqud» dastanları Azərbaycanın bir sıra qədim yer adlarını özündə hifz etməsi baxımından çox əhəmiyyətlidir. Burada adı çəkilən *Ağca qala, Bayat, Bərdə, Qara dağ, Sancudan, Sürməli, Çeşmə* və s. Azərbaycan ərazisində olan qədim yer adlarıdır. XIII əsrin əvvələrindən başlayaraq Azərbaycan monqolların hücumuna məruz qalır, az sonra monqollar tərəfindən zəbt edilir. Monqol yürüşlərində şəxsən iştirak etmiş XIII əsrin məşhur tarixçisi F.Rəşidəddin «Cami-ət-təvarix» əsərində

---

[1] Qukasyan V.Y. Azərbaycan dilinin təşəkkül tarixinə dair // Azərbaycan filologiyası məsələləri, I buraxılış, Bakı: Elm, 1983, s. 136.

*Qarabağ, Piləsuvar, Arasbar, Astara, Xillə* və s. toponim və paleotoponimlər ilk dəfə olaraq qeydə alınmışdır. XV əsr Azərbaycan şairi Bədr Şirvaninin əsərlərində *Salyan, Zərdab, Bərgüşad, Talıstan, Ucar, Qocalançay, Türyançay* və s. paleotoponimlər tez-tez xatırlanır. A.Bakıxanov «Gülüstani-İrəm» əsərində yer və tayfa adlarını tarixi baxımdan təhlil etmiş, 1843-cü ildə yazdığı «Adlar və titullar» əsərində şəxs adları və titullar haqqında məlumat vermişdir. Azərbaycanda şəxs adlarının ilk elmi izahı A. Bakıxanovun adı ilə bağlıdır. 1920-ci ildə M. Baharlının (Vəliyev) çapdan çıxmış «Azərbaycan» adlı kitabında Azərbaycanda olan etnonimlər və etnotoponimlərdən bəhs edilir.

Postsovet məkanında və o cümlədən Azərbaycanda XX əsrin ikinci yarısından başlayaraq onomastikanın müxtəlif sahələri inkişaf etməyə başlamışdır. XX əsrin 50-60-cı illərindən sonra Azərbaycanda toponimika müstəqil bir elmə çevrilmişdir. Bu sahənin araşdırıcıları coğrafiya, tarix və dilçilik elmləri mütəxəssisləridir. Azərbaycanda toponimika sahəsində R.Yüzbaşov, E.Q.Mehrəliyev, N.Nəbiyev, N.S.Bəndəliyev, B.Ə.Budaqov, Ə.Hüseynzadə, K.Əliyev, Y.Yusifov, Q.Qeybullayev, Ə.Dəmirçizadə, Ə.Əliyev, S.M.Mollazadə, A.Axundov, L.Quliyeva, T.Əhmədov, Q.Məşədiyev, Y.Yusifov, S.K.Kərimov, Z.Xasiyev, İ.Bayramov, A.Qurbanov və b-nın xidmətləri xüsusi qeyd edilməlidir.

Azərbaycan paleotoponimiyasının tədqiqində udin dilinin və Azərbaycan dilinin qədim tarixinin tədqiqatçısı V.Qukasyanın məqalələrinin də əhəmiyyəti az deyildir. Bu məqalələrdə Türgen (Türyançay), Türküstan (Xəzəriyyə), Qoşqar, Qarayazı, Şonqar və b. paleotoponimlərin mənşəyi barədə ətraflı məlumat verilir, onların Azərbaycan dilini qədim toponimik təbəqəsinə məxsus olduğu göstərilir.

Azərbaycan paleotoponomiyasının tədqiqi üçün böyük elmi əhəmiyyəti olan monoqrafik tədqiqatlardan biri Ç.H.Mirzəzadənin «Azərbaycan toponimləri orta əsr ərəb mənbələrində» adlı namizədlik dissertasiyasında Azərbaycan, Kür, Şəki, Şamaxı, Xəzər dənizinin bəzi qədim adları tədqiq olunur.

Bizim eranın əvvəllərindəki Azərbaycanın bəzi paleotoponimləri məşhur alman alimləri tarixçi-filoloq İ.Markvart və dilçi-iranist H.Hübşmanın da tədqiqat obyekti olmuşdur. Belə ki, onlardan birincisi VII əsrə aid «Ermənistan coğrafiyası» əsərində qeydə alınmış Azərbaycanın qədim paleotoponimləri *Bərdə, Gəncə, Muğam, Xalxal, Agqun, Tərtər* və s. haqqında geniş məlumat vermiş, bu mənbəyə əsaslanmaqla Qafqaz Albani-

yasının bir çox qədim toponim və paleotoponimlərini lokalizə etmişdir.[2] Azərbaycan paleotoponimlərinin öyrənilməsində Z.M.Bünyadovun tədqiqatları xüsusi əhəmiyyət kəsb edir. O, istər özünün tədqiqatlarında, istərsə də tərcümə etdiyi ərəb və başqa yazılı mənbələrə daxil etdiyi çoxlu qeyd və əlavələrində həmin mənbələrdə adları çəkilən bir çox toponimlərin lokalizəsinə xüsusi diqqət yetirmiş, *Şəki, Mingəçevir*, *Bəzz* və s. paleotoponimlərə isə ayrıca məqalələr həsr etmişdir.[3]

Azərbaycan tarixinin antik dövr tədqiqatçısı Y.B.Yusifovu da paleotoponimlər daha çox maraqlandırmışdır. O, ilk məqaləsində Albaniya və Aran toponimlərinin öyrənilməsinə, digərlərində isə mənbələrdə qeydə alınmış paleotoponimlərin Azərbaycan tarixinin və dilinin öyrənilməsində rolu və əhəmiyyətinə toxunmuşdur.[4]

Azərbaycan toponimikası erkən orta əsr Zaqafqaziya mənbələrində öz əksini daha geniş şəkildə tapır. Məsələn, V əsrdə erməni tarixçiləri Faost Buzand, Yeğişe, Parplı Yazar, Movses Xorenatsi və başqaları *Şəki, Qaspi, Xalxal, Naxçıvan, Təbriz, Qəbələ, Balakən* və digər toponimlərin adlarını çəkmiş, bu yaşayış məskənləri barədə əhəmiyyətli məlumatlar vermişlər.[5]

VII əsrə aid "Ermənistan coğrafiyası"nda Azərbaycanın bütün vilayətlərinin, şəhərlərinin, dağlarının, çay və göllərinin, həmçinin qəbilə və tayfalarının adları verilmişdir. Bu cəhətdən VII əsrin sonlarında yazılmış «Alban tarixi» xüsusi maraq doğurur. Çünki bu əsərdə Azərbaycan toponimikası ilə yanaşı antroponimikası da öz əksini tapır. Albaniyanın minillik tarixinin ensiklopediyası olan bu kitabda hələ V əsrdə Azərbaycanda Qazan xanın, onun sirdaşı Qaun, VII əsrdə Avçi tarxanın, Çolpan (Venera) tarxanın, Alp Çetəpərin, Qonaqın, İl Yeçinin və başqalarının yaşadıqları qeyd edilir.[6] *Türküstan* toponiminə də ilk dəfə «Alban tarixi»ndə təsadüf edilir. Bu əsərdə ilk dəfə olaraq *Şabran, Şirvan, Gəncə, Bakı, Muğan, Musa qayası, Beyləqan* və bu kimi toponimlər qeyd olunmuşdur. Bütövlükdə isə Azərbaycan paleotoponimiyası XIII əsr coğrafiyaşünası Yakut əl-Həməvinin «Ölkə adlarının əlifba sırası» əsərində toplanmışdır. Bu əsəri Azərbaycan toponimlərinin ilk izahlı lüğəti də hesab etmək olar.

---

[2] Məşədiyev Q.İ..Azərbaycanın bəzi paleotoponimlərinin etimoloji təhlili // Azərb. SSR EA-nın Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası), № 1, Bakı, 1982, s. 74-79; Əhmədov T. El-obamızın adları. Bakı: Gənclik, 1984, s. 20-21.
[3] Буниятов З.М. Азербайджан в VII-IX вв. Баку, 1965, s. 58.
[4] Yusifov Y.B. "Quba" və "Xaçmaz" // Elm və həyat, № 9, 1965, s. 17.
[5] Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları, I cild, Bakı: Nurlan, 2004, s. 339.
[6] Məşədiyev Q.İ. Azərbaycanın bəzi paleotoponimlərinin etimoloji təhlili // Azərb. SSR EA-nın Xəbərləri(Ədəbiyyat, dil və incəsənət seriyası), № 1, Bakı, 1982, s. 279.

M.H.Baharlı (Vəliyev) də öz əsərlərində Azərbaycan etnotoponimlərinin mənşəyinə xüsusi diqqət yetirir. Məhz onun əsərlərindən məlum olur ki, paleotoponimlərimizin, xüsusilə də paleooykonimlərimizin müəyyən hissəsinin əsasında türkmənşəli qəbilə, tayfa, tirə və nəsil adları durur. Bu ilk dəfə M.H.Baharlının tədqiq etdiyi *Ayrım, Bəydili, Baharlı, Bayandurlu, Boyat* və digər etnonimlər və etnotoponimlər buna misal ola bilər.

Qafqaz Albaniyasının qədim dövr tarixinin öyrənilməsi ilə məşğul olan K.Q.Əliyevin də bu mövzu ilə bağlı əsərləri vardır. Müəllif paleotoponimlərə əsaslanaraq türk tayfalarının bu ərazidə nəinki ilk orta əsrlərdən, hətta antik dövrdən mövcud olduğunu göstərir.[7] Ə.Hüseynzadə Azərbaycan paleotoponimlərini – *Bakı, Quba, Biləcəri, Quşçu, Abşeron, Sumqayıt* və s., eləcə də oğuzlaraqədərki etnonim və etnotoponimləri tədqiq etmişdir.[8]

Azərbaycan paleotoponimlərinin öyrənilməsində Q.Ə.Qeybullayevin də əməyi çox böyükdür. Tədqiqatçı bu toponimləri müəyyən təbəqələr üzrə (türk, Azərbaycan, Qafqaz, İran, monqol, ərəb və s.) tədqiq etmiş, onların əksəriyyətinin etimoloji təhlilini verməyə çalışmışdır.[9]

Azərbaycan ərazisindəki toponimlər dil mənsubiyyətinə görə də tədqiq olunur. Bu baxımdan L.H.Quliyevanın əsəri özünün tədqiqat metodları və elmi səviyyəsinə görə fərqlənən qiymətli araşdırmalardandır.[10]

I fəslin ikinci yarımbölməsi "**Azərbaycan paleotoponimlərində qədim türk elementləri**" adlanır. Azərbaycan toponimlər sistemi yaranma tarixinə görə, ən qədim, qədim, yeni və ən yeni toponimləri özündə birləşdirir. Onların mənşəcə çox az bir qismini yad dil toponimləri təşkil etməsinə baxmayaraq, əksəriyyəti bu ərazinin ən qədim sakinləri olan türk etnosuna məxsus dil materialları qrammatik forma və modellər əsasında yaranmışdır və türk dillərinin ən qədim dil vahidlərini daha qabarıq şəkildə və bir növ daşlaşmış formada zəmanəmizə qədər mühafizə etmiş onomastik vahidlərdən ibarətdir. Həm də bunlar Azərbaycan ərazisini bütünlüklə əhatə edir. Xalqımızın qədim səlnaməsinin səhifələri olan adlarda təşəkkültapma tariximiz, dilimizin formalaşması və inkişafı, ulu babalarımızın keçdiyi yol, eləcə də bu ərazidə məskunlaşmış bir sıra başqa tayfa və etnik qruplar, onların müxtəlif dil qruplarına mənsub qəbilə, tayfa və xalqlarla tarixi

[7] Алиев К. Древнее население Азербайджана по данным топонимии // Материалы научной конференции, посвященной изучению топонимии Азербайджана, Баку, 1973, s. 15.

[8] Гусейнзаде А.А. К этимологии топонима Bilacari // Советская тюркология, № 5, Баку, 1972, s. 111; Əhmədov T. Azərbaycan paleotoponimiyası. Bakı: ADU nəşriyyatı, 1985, s. 25.

[9] Гейбуллаев Г.А. К происхождению некоторых этнонимов Азербайджана (Сумгаит, Кюнгют, Джорат, Зукуд, Орият, Тангыт, Чиркин) // Доклады АН Азерб. ССР, №2, 1975, s. 111-115.

[10] Гулиева Л.Г. Русская топонимия Азербайджана. Баку, 1984.

əlaqələri və s. öz əksini tapmışdır. Belə onomastik vahidlər etnik prosesləri özündə daha qabarıq və daha dəqiq əks etdirən və xalqımızın formalaşmasında iştirak etmiş bir sıra tayfaların, xüsusilə türkdilli tayfaların və tayfa birləşmələrinin adlarının indiyə qədər qoruyub saxlayan ən etibarlı mənbələrdəndir. Məhz buna görə Y.B.Yusifov göstərir ki, toponimik adlar Azərbaycan xalqının əmələ gəlməsi probleminin həllinə kömək edən mühüm köməkçi tarixi mənbədir.[11] Əsasən yerli coğrafi şəraitin müxtəlif çalarlarını əks etdirən rəngarəng coğrafi adlar bir dövrün deyil, müxtəlif əsrlər və minillərin məhsuludur. Onların yaranma və formalaşmasında yerli və gəlmə qədim türk xalqları və tayfaları, o cümlədən, hunlar, suvarlar, xəzərlər, bulqarlar, qıpçaqlar, kumanlər, oğuz-səlcuqlar və s. eləcə də qanlı, türkeş, tele, qazan, qapan, onların törəmələri və s. iştirak etdiyindən toponimlərdə qədim türk qəbilə və tayfa dillərinə və eləcə də sonrakı dövrlərdə bu dil və dialektlər əsasında formalaşmış Azərbaycan dilinin müxtəlif inkişaf mərhələlərinə aid çoxlu dil vahidlərinə təsadüf olunmaqdadır. Həmin elementlərin bir qismi dilimizin yazıyaqədərki dövrünə aiddir. Onlar nə dilimizin qədim yazılı mənbələrində, nə də dialekt və şivələrimizdə müşahidə olunur. Toponimlərdə özünü göstərən qədim elementlərin digər hissəsini müasir Azərbaycan dili baxımından arxaik sayılan, lakin yazılı mənbələrimizdə, dialekt və şivələrimizdə işlənən və ya ara-sıra təsadüf olunan ünsürlər təşkil edir. Bu baxımdan Azərbaycan toponim və paleotoponimlərinin yaranma və formalaşmasında müşahidə olunan qədim türk (Azərbaycan) elementlərini tarixi-xronoloji cəhətdən şərti olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar: 1. Azərbaycan dilinin yazıyaqədərki dövr elementləri; 2. Azərbaycan dilinin yazılı dövr elementləri.

Azərbaycan dilinin bu dövrünü əks etdirən tarixi fonetika, leksikologiya və qrammatikası hələ yazılmamışdır. Burada isə coğrafi adlarda indiyə qədər mühafizə olunmuş qədim dövr elementlərinin üzə çıxarılmasında qədim türk abidələrindən, qohum türk dillərinin materiallarından, adı çəkilən dillərin bir sıra spesifik xüsusiyyətlərinin araşdırılmasına həsr edilmiş tədqiqatlardan istifadə olunmuşdur. Tədqiqat göstərir ki, müasir Azərbaycan toponimlər sistemində müşahidə olunan paleotoponimlərdə bu əraziyə yürüşləri və məskunlaşmaları qeyd edilən qədim türk qəbilə və tayfa dillərinin (dialektlərinin) müxtəlif yaruslarına aid elementlərə təsadüf olunmaqdadır.

**1. Fonetik elementlər.** Eramızın ilk əsrlərindən etibarən Azərbaycanda bir sıra qəbilə və tayfaların (xüsusilə hunların, bulqarların, xəzər-

[11] Юсифов Ю.Б. Топонимия как исторический источник // Материалы научной конференции, посвященной изучению топонимии Азербайджана, Баку: Элм, 1973, s. 70.

lərin, savirlərin, avarların və bir sıra başqa türk etnoslarının) məskunlaşması, eləcə də bizim eranın VII əsrindən Albaniyanın Xəzər xaqanlığı hakimiyyətinə daxil olması nəticəsində yaranan «türkmənşəli ümumxalq Azərbaycan dili»[12] sonrakı dövrlərdə səlcuq oğuzlarının bu əraziyə kütləvi axını ilə yeni inkişaf yoluna qədəm qoyan və əsasən, bu dil qrupu əsasında ədəbi dil səviyyəsinə yüksələn Azərbaycan dilindən bir sıra səciyyəvi fonetik, leksik və qrammatik xüsusiyyətlərinə görə fərqlənmişdir.

Toponimlərin tərkibində indiyə qədər mühafizə olunmuş həmin dövr dilimizin səciyyəvi fonetik xüsusiyyətlərindən biri və ən maraqlısı *ç/c~d~z~y~s~ş* səs uyğunluğu, daha doğrusu, bu dövr dialekt paralelləridir. Əslində isə bunlar Azərbaycan dilinin yazıyaqədərki dialekt fərqlərinin izləridir. Toponimlərdə belə dialekt ünsürləri (*ç/c ~d~z~y~s~ş*) həm müstəqil şəkildə məntəqə adı kimi sabitləşən, həm də bir sıra coğrafi adların formalaşmasında əsas rol oynayan «sıldırım, uçurum, sıldırım sahil, yarğan dik sahil, dik qaya və s.» mənalı, birhecalı *yar* (*car/cər-dar-zar/zor*) qədim coğrafi nomenin əvvəlində (*Car* - Zaqatala rayonunda kənd adı; *Biləcər* - Bakıda qəsəbə; *Zor* – Qubadlı rayonunda kənd adı və s.) rast gəlinir.

Azərbaycan toponimlər sistemində *ç~s~z* qədim dialekt paralellərini özündə qoruyub saxlayan coğrafi adlar da çoxdur. Bu cəhətdən *çıraq* komponentli etnooykonim və etnooronimlər ─ *Çıraq* (Kəlbəcər rayonunda kənd adı), *Çıraqqala, Çiraqqaya/Çaraqqaya* (Şabran rayonunda qala, xarabalıq və dağ adları)), *Çiraqlı* (Daşkəsən, Şəmkir rayonlarında kənd adı) və s. toponimik adları diqqəti daha çox çəkir. İstər *çiraq* və bu komponentli coğrafi adlar, istərsə də *Sirik* (Cəbrayıl rayonu)*, Ziyrik* (Laçın rayonu) oykonimləri *sirak*-*şirak* tayfa adlarının müxtəlif (*c-s-z*) dialekt paralelləridir.

Toponimlərin, paleotoponimlərin tərkibində mühafizə olunmuş arxaik elementlər onların qədimliyini, həmin ünsürlərin dilimizin müəyyən dövrlərində geniş işləndiyi zaman yaranmış coğrafi adlardan ibarət olduğunu aydın şəkildə göstərir.

**2. Leksik elementlər.** Bu qrupa nə konkret Azərbaycan dilinə aid yazılı mənbələrdə, nə də onun dialekt və şivələrində işləndiyi müşahidə olunan leksik vahidlər daxil edilir. Belə qədim elementlərin mənaları müasir dövrdə dərk olunmur və onlar isə ya qədim türk abidələri, ya da qohum türk dilləri və dialektlərinin materialları əsasında aydınlaşdırılır. Azərbaycan toponimiyasında mühafizə olunmuş qədim türk leksik layına daxil olmuş leksik vahidlər ya konkret coğrafi obyekt adlarını bildirməyə, ya da bu və ya digər toponimi formalaşdırmağa xidmət edən bir və ya

[12] Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. Bakı: ADU nəşriyyatı, 1976, s. 37-38.

ikihecalı ümumi adlardan, əksər hallarda isə apelyativ sözlərdən ibarət olurlar. Ekstralinqvistik baxımdan da coğrafi termin səciyyəli sözlərdən törənən toponimlər dilin ən qədim leksik vahidləri olmaqla yanaşı, həm də toponimlərin ən qədim layını təşkil edir. Bu deyilənləri nəzərə alaraq paleotoponimlərin tərkibində mühafizə olunmuş qədim türk leksik vahidlərdən *art, bük, əlik, atuc, bil, balık və s.* sözlər nəzərdən keçirilir.

**3. Leksik-semantik elementlər.** (Semantik arxaizmlər). Azərbaycan paleotoponimiyası qədim türk (paleoazərbaycan) leksik-semantik elementləri ilə zəngindir. Belə leksik vahidlərin müxtəlif növ obyekt adlarının tərkibində mühafizə etdikləri arxaik məna çalarlarını isə həm qədim türk abidələri və qohum türk dilləri materialları əsasında, həm də coğrafi obyektin özünün bilavasitə müəyyən səciyyəvi cəhətlərini nəzərə almaqla müəyyənləşdirmək, bərpa etmək mümkündür. Dilçilik baxımından xüsusi əhəmiyyət kəsb edən və ayrıca tədqiqata ehtiyacı olan bir məsələnin həllində ilk növbədə etimoloji metoda əsaslanmaq lazımdır. Bu cəhətdən Azərbaycan toponimik sisteminə daxil olan küllü miqdarda toponim və mikrotoponimlərin (oykonim, hidronim və oronimlərin) birinci komponentləri yerində işlənən *ağ, qara və sarı* sözləri diqqəti cəlb edir.[13] Göstərilən leksik vahidlərin yüzlərlə coğrafi adın tərkibində təkcə rəng mənasında deyil, bir sıra başqa arxaik mənalarda işləndiyi də aydınlaşdırılmışdır.

Dissertasiyanın II fəsli «**Azərbaycan paleooykonimlərinin linqvistik təhlili**» adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

II fəslin birinci yarımbölməsi «**Azərbaycan paleooykonimlərinin xarakterik xüsusiyyətləri**» adlanır. Azərbaycanın coğrafi adlarının bəziləri peşə sənətkarlığı, bəziləri yer, bəziləri də bu və ya digər hadisə ilə əlaqədar nəsil və tayfa birləşmələrini bildirir. Həmin sözlərin bir qismi öz ilkin formasını saxlamış, bir qismi isə müəyyən fonetik dəyişikliyə uğramışdır. Uzun tarixi dövr ərzində ayrı-ayrı xalqlar və etnik qruplar toponimləri müxtəlif səbəblər üzündən bir şəkildən başqa şəklə salır, mənsub olduqları dilin, şivənin, yaşadıqları dövrün xüsusiyyətlərinə uyğunlaşdırırlar. Toponimlərin geniş yayılmış növlərindən biri oykonimlərdir. Oykonim şəhər, qəsəbə, kənd tipli yaşayış məntəqəsi adlarını bildirir və yaşayış məntəqəsinin böyük və kiçikliyinə görə iki qrupa ayrılır: komonimlər və astionimlər.[14]

Komonimlər təkcə kəndləri deyil, şəhər tipli qəsəbələri də əhatə edir. Azərbaycan rayonlarında çoxlu bu tipli komonimlər mövcuddur. Məsələn, *Avrora, Aşağı Nügədi* (Lənkəran rayonu), *Biləcəri, Buzovna, Keşlə* (Bakı

---

[13] Əhmədov T. Azərbaycan paleotoponimiyası. Bakı: ADU nəşriyyatı, 1985, s. 67.
[14] Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2008, s. 32.

şəhəri) və s. oykonimləri bu tipli qəsəbə adlarına nümunə göstərmək olar. Kənd adlarından fərqli olaraq bu tip yaşayış məskənlərinin adını daşıyan komonimlərin əksəriyyəti müasir adlardır. Şəhər tipli qəsəbələrin əksəriyyəti Abşeron yarımadasında və Lənkəran rayonu ərazisində yerləşir.

Astionim hər hansı şəhər yaşayış məntəqəsinin adını bildirir. Azərbaycanda 49 astionim vardır. Bunların bir qismi əvvəlcə şəhər tipli qəsəbələrin adını daşıdığına görə komonim kimi formalaşmış, sonradan həmin ad şəhərə verildiyi üçün astionim olmuşdur.[15] Astionimlərin bir qrupu isə əvvəlcədən müstəqil astionim kimi formalaşmışdır. Məsələn, *Bakı, Gəncə, Lənkəran, Daşkəsən, Ağdaş, Zaqatala, Şamaxı* və s.

Paleotoponimlərin, xüsusilə paleo- və mezooykonimlərin əksəriyyəti etnik müxtəlifliyin mövcud olduğu bir şəraitdə, əsasən qəbilə və tayfa adları ilə bağlı yaranmışdır.[16] Belə ki, mənbələrdə ilk orta əsrlərdə Albaniya ərazisində etnik cəhətdən və dil baxımından bir-birindən seçilən *alban, tərtər, xəzər, bulqar, quşçu* və s. tayfa adlarının indiyə qədər *Alban, Tərtərçay, Xəzər, Bolqarçay və* s. toponimlərdə müşahidə olunması həmin qanunauyğun prosesin təzahürüdür. Toponimlərin meydana gəlməsində antroponimlər də mühüm rol oynamışdır. Xüsusi mülkiyyətin hakim olduğu dövrlərin toponimiyada qalıqları kimi mühafizə olunan belə adlar bir neçə coğrafi nomenli makrotopoimlərin və çoxlu mikrotoponimlərin birinci tərəfləri yerində işlənməklə yanaşı, həm də bəzən, hətta müstəqil şəkildə coğrafi nomensiz oykonimlər kimi də işlənirlər. *Əliqulu, Əlyar, Ibadulla, Nağdalı* və s. oykonimlər buna misal ola bilər. Azərbaycan toponimlər sistemində sadə paleo- və mezooykonimlərin əksəriyyətini yaşayış məntəqəsinin tipini, yerini, coğrafi relyef formalarını və su obyektlərinin adlarını bildirən qədim türk (paleoazərbaycan) mənşəli yerli coğrafi terminlər təşkil edir. Bura ilk növbədə *Bum, Bük, Car/yar, Tuğay* və s. toponimləşən coğrafi terminlər daxildir. Həmin toponimlərin qədim türk (Azərbaycan) dilinə məxsus sözlərlə ifadə olunmasını ümumtürk abidələri və qohum dillərin materialları da təsdiq edir. T.Əhmədov sadə, elliptik coğrafi nomensiz oykonimləri aşağıdakı kimi qruplaşdırır: 1. Etnonimlərdən törənən oykonimlər; 2. Antroponimlərdən törənən oykonimlər; 3. Oronim və adonimlərdən törənən oykonimlər; 4. Hidronimlərdən törənən oykonimlər; 5. Fitonim və zoonimlərdən törənən oykonimlər; 6. Memorial xarakterli oykonimlər; 7. Digər adlardan törənən oykonimlər».[17]

---

[15] Qafqaz ərazisi və tayfalarının təsviri materialları məcmusu (SMOMPK əsasında), s. 228-229.
[16] Əliyeva R. Azərbaycan toponimləri. Bakı: Qanun, 2002, s. 149.
[17] Əhmədov T. El-obamızın adları. Bakı: Gənclik, 1984, s. 155.

Ayrı-ayrı qruplara daxil olan oykonimlər müxtəlif quruluşlu ümumi və xüsusi adların köməyi ilə düzələcək ikinci komponentlərinin düşməsi nəticəsində meydana çıxan vahid formada – sadə, coğrafi nomensiz variantda da işlənə bilərlər. Bu baxımdan, həmin adları müxtəlif şəkildə öyrənmək mümkündür. Toponimlər yaranma və formalaşma yollarına görə başqa leksik vahidlər kimi dildə mövcud olan sözdüzəltmə modellərinə əsaslanır. Toponimlərin yaranması və inkişafı, onların müxtəlif tədqiqatçılar tərəfindən təsnifi barədə elmi ədəbiyyatda müəyyən fikir və mülahizələr də söylənilmişdir. Biz paleooykonimlərin təhlili zamanı A.Qurbanovun, S.Mollazadənin və Q.Məşədiyevin bölgüsünə əsaslanmışıq və tədqiqat boyu da bu prinsipi gözləmişik: 1. Sadə – leksik yolla yaranan toponimlər; 2. Düzəltmə – morfoloji üsulla yaranan toponimlər; 3. Sintaktik – mürəkkəb yolla yaranan toponimlər.

Toponimlər müxtəlif sözlər, söz birləşmələri və bəzən də cümlələrlə ifadə olunur, yəni bütöv bir cümlə formasında müəyyənləşir. Azərbaycan toponimlər sistemində dildə işlənən leksem və morfemlərin köməyi ilə düzələn sadə və düzəltmə oykonimlərə təsadüf olunur. Belə ki, ilk baxışda sadə və düzəltmə oykonim kimi görünən terminlərin (kənd, oba, şəhər və s. adlarının) böyük qismi bir neçə sözün birləşməsi köməyi ilə yaranmış mürəkkəb quruluşlu adlardır.[18] Coğrafi adlar quruluşuna və yaranma yollarına görə nomenklator sözlərlə (nomenlərlə) daha çox bağlıdır. Söz yaradıcılığı məsələsini də yaddan çıxarmaq olmaz. Çünki morfoloji yolla daha çox ad yaratmaq mümkündür. Burada həm xüsusi adlar, həm də ümumi sözlər nəzərə alınmalıdır.

II fəslin ikinci yarımbölməsi "**Azərbaycan paleooykonimlərinin leksik-semantik və qrammatik xüsusiyyətləri**" adlanır. Azərbaycan paleotoponimiyasının, xüsusilə də paleooykonimlərin araşdırılması aydın şəkildə göstərir ki, etnonimlərin müxtəlif struktur tiplərinin oykonimləşməsi geniş yayılmışdır:

*Etnonimlərdən (qəbilə, tayfa, nəsil, tirə, etnik qrup, xalq və millət adlarından) törənən oykonimlər (etnooykonimlər).* Azərbaycanın tarixi və müasir oykonimlərinin əks olunduğu mənbələr yaranma tarixinə, məzmununa və xarakterinə görə çox müxtəlifdir. Etnooykonimlərin formalaşmasında iştirak etmiş etnonimlərin müəyyən hissəsini yalnız müasir Azərbaycan dili və onun dialekt və şivələri baxımından sadə etnonim adlandırmaq olar. Əslində isə onların etimoloji təhlilləri zamanı bir çoxunun vaxtilə morfoloji və sintaktik üsulla yaranmaları aydınlaşır. Məsələn, bir sıra oyko-

[18] Əhmədov T. El-obamızın adları. Bakı: Gənclik, 1984, s. 155.

nimlərdə (eləcə də oronim və hidronimlərdə) əks olunmuş *qaraman* etnonimi tarixən iki müstəqil söz *qara* «güclü, qüvvətli, qoçaq, cəsur, igid» və *man* «adam, insan»[19] leksemləri əsasında formalaşmışdır.

Tərkibində qədim türk dillərində «cəmlik, mənsubluq, aidlik» mənası ifadə edən *-ğıt, -ğut, -at, -t* şəkilçisi olan *bayat, tanğıt, alpout* və s. etnonimlərini də bu yolla izah etmək olar. Azərbaycan oykonimləri içərisində *xəzər, bulqar, avar, abar, salar, əfşar, qacar, kəngər* və s. *–ar, -ər, -ır, -ir, -ur, -or* komponentli etnonimlər də diqqəti cəlb edir. Oykonimlərin formalaşmasında iştirak edən və oykonim kimi sabitləşən düzəltmə quruluşlu etnotoponimlərin sayı sadə və mürəkkəb yolla düzələn etnotoponimlərdən daha çoxdur. Bu qəbildən olan Azərbaycan etnotoponimlərini nəzərdən keçirdikdə məlum olur ki, dilin söz yaradıcılığında olduğu kimi, etnotoponim yaradıcılığında da morfoloji üsul aparıcı rol oynayır. Lakin etnotoponim yaradıcılığında iştirak edən şəkilçilər ümumişlək sözlərin yaradılmasında iştirak edən şəkilçilərdən funksiyalarına, yaratdıqları semantik çalarlarına görə müəyyən qədər fərqlənir. Belə ki, etnotoponim yaradıcılığında istifadə olunan şəkilçilərin funksiyaları Azərbaycan dilindəki uyğun şəkilçilərin funksiyalarından kifayət qədər məhduddur. Məsələn, *-lı*$^4$ şəkilçisi ədəbi dilimizdə müxtəlif semantik qruplara aid düzəltmə sözlər yarada bildiyi halda, etnonimiyada bunun çox az qismini yerinə yetirə bilir.

Bu qrupa daxil olan, dilin tarixi inkişafı nəticəsində oykonimləşən etnonimlərin səciyyəvi cəhətlərindən biri də budur ki, onların bir qismi müxtəlif adlara bu və ya digər sözdüzəldici şəkilçinin əlavə edilməsi ilə yaradıldığı halda, bir çoxları əvvəlcədən mövcud olmuş etnonimik adlara müəyyən morfemlərin artırılması ilə həmin tayfa, tirə, nəsil və sairəyə məxsus konkret qrup, dəstə mənsubluğunu bildirən yeni etnonimlər əmələ gətirir. Bu baxımdan oykonimləri – oykonimləşən düzəltmə quruluşlu etnonimləri yaranma yollarına görə müxtəlif qruplara ayırmaq olar:

*Qədim tarixə malik olan etnonimlərdən düzələn oykonimlər.* Belə etnonimlərin böyük bir hissəsini «konkret qrupa, dəstəyə, zümrəyə mənsubluq, aidlik» məna çalarları ifadə edən *–lı*$^4$ şəkilçiləri ilə düzələnlər təşkil edir. Müq. et: *Kəngərli, Qayalı, Kəbirli* və s.

Etnonimlər əsasında *–lar*$^2$ və *-an*$^2$ şəkilçiləri ilə düzələn və oykonimlərdə əks olunan etnotoponimlər. Həmin şəkilçilər əvvəlcədən mövcud olan bir sıra tayfa, nəsil və s. adlarına qoşularaq konkret qrupun həmin zümrəyə mənsubiyyətini ifadə edən yeni etnotoponimlər yaradır: *Türklər, Muğan* və

[19] Еремеев Д.Е. К семантике тюркской этнонимии // Этнонимы, Москва: Наука, 1970, s. 136-142.

s.[20] Burada bir cəhəti də qeyd edək ki, yuxarıda göstərilən oykonimlərin tərkibindəki *-lar²* və *–an²* şəkilçiləri, demək olar ki, *-lı⁴* şəkilçisinin mənsubluq, aidlik funksiyasını yerinə yetirir. Sabirabad və Tovuz rayonlarındakı *Qovlar* oykonimi peçeneqlərin *qov* tayfa adını əks etdirir. Azərbaycanda bu tayfa adına Göygöl rayonundakı *Qovlarşarı*, Ismayıllıdakı *Qovdağ,* Lerikdəki *Qovdərə* oykonimlərinin tərkibində rast gəlinməkdədir.

Midiya dövründə indiki Azərbaycan ərazisi müxtəlif vilayətlərə bölünmüşdür. Bu xalqların müəyyən hissəsini türk qəbilə və tayfaları təşkil etmiş və qeyri-türk xalqları həmin nəsli *maq, muq* «vasitə» adı ilə adlandırmışdır. Bu tayfalardan biri *Mağan-Muğan* adı ilə tarixi mənbələrdə qeydə alınmışdır. *Alban* sözünü də bu qrupa daxil etmək olar. Qədim tarixi mənbələrdə Midiya dövrünə aid üç sözə rast gəlirik ki, bu sözlər dəyişikliyə uğramadan bu gün də işlədilir. Bunlar *Muğan, alban* və *udin* sözləridir.

II fəslin üçüncü yarımbölməsi «**Azərbaycan paleotoponimlərinin mənşə xüsusiyyətləri**» adlanır. Burada Poladlı, Tapan, Çərtəyəz, Boladi, Altıağac, Börk, Qullar, Kolayır, Kolanı, Kolagirən, Kığı, Qaraçuğ// Qaraçuq, Qəmərli, Qərqər, Dəmirçi, Kəngərli, Naftalan kimi onomastik vahidlərin etimoloji tədqiqini vermişik. Azərbaycan toponimlər sistemi qədim türk (Azərbaycan) paleotoponimləri və həmin adlarda mühafizə olunmuş Azərbaycan dilinin qədim dövr fonetik, leksik və leksik-semantik elementləri ilə zəngindir. Göstərilən xarakterli faktların üzə çıxarılması bir daha təsdiq edir ki, bu regionda türk mənşəli toponimlər daha qədimdir, toponimik sistemdə müasir Azərbaycan dili və onun dialekt və şivələri baxımından yad görünən, mənşəyi və mənası, ifadə etdiyi semantik çalarları aydın olmayan bir sıra topokomponentlər təsadüfi deyil, Azərbaycan dilinin və eləcə də bu dilin formalaşmasında mühüm rol oynamış türk tayfa və tayfa birləşmələri dillərinin (dialektlərinin) qədim elementləri, tarixən işlənmiş vahidləridir. Faktlar sübut edir ki, türk etnosu bu torpağın əsas və ən qədim sakinlərindən olub, həmin dövrlərdən böyük bir ərazidə məskunlaşmışlar.

Dissertasiyanın III fəsli «**Azərbaycan paleooronim və paleohidronimlərinin linqvistik təhlili**» adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

III fəslin birinci yarımbölməsi "**Azərbaycan paleooronimlərinin linqvistik təhlili**" adlanır. *Azərbaycan paleooronimlərində müşahidə edilən topoformantlar.* İnsanlar məskunlaşdığı ərazilərdə müxtəlif təsərrüfat sahələri ilə əlaqədar olaraq relyefin oxşar və fərqli cəhətlərini müəyyənləşdirir və onların hər birinə öz dilində adlar verir. Bu dərketmədə insanlar əkinə və

[20] Əhmədov B.B. "Aran" toponimi haqqında // Azərbaycan onomastikası problemlərinə həsr edilmiş III elmi-nəzəri konfransın materialları, Bakı, 1990, s. 160.

maldarlığa yararlı torpaqları, meşə, bağlıq, biçənəklik, içməli və müalicəvi sular çıxan yerləri, uçurumlu, qayalı, şoran və başqa obyektləri bir-birindən fərqləndirməklə sonrakı tarixi inkişaf prosesində həmin oroqrafik obyektlərdə yerləşən faydalı sərvətlərə də öz münasibətlərini bildirir, bununla da yaşadığı ərazinin bölgələrini mənimsəyir və onlar haqqında tam təsəvvürə malik olur. Azərbaycanda düzənliklər və vadilər yaşayış üçün daha yaxşı şəraitə malik olduğuna baxmayaraq, arxeoloji qazıntılar göstərir ki, ulu əcdadlarımız dağlıq əraziyə də üstünlük vermişlər. Bu bir tərəfdən həm qonşu, həm də yadelli tayfaların qəfil basqınlarından qorunmaq, digər tərəfdən əkinçiliklə yanaşı daha intensiv təsərrüfat sahəsi olan maldarlığı inkişaf etdirmək üçün dağlıq ərazilərin üstünlükləri ilə bağlı olmuşdur. Qədim və arxeoloji cəhətdən çox təbəqəli yaşayış məskənlərinin, əsasən, dağlıq yerlərdə aşkarlanması bununla izah olunur. Ona görə də qədim Daş dövründən başlayaraq tayfalar və etnoslar bir-birini əvəz etdikcə dağlıq ərazilərin — oronimlərin dil mənsubiyyəti dəyişmiş və onlara müsbət və ya mənfi relyef formalarına advermə prosesi də min illər boyu davam etmişdir. Bu baxımdan da Azərbaycanın indiki oronimiyasının yaranma və formalaşma tarixi məlum deyil. Lakin onlar mədəni irsimizin tərkib hissəi olmaq etibarilə xalqımızın özü qədər qədimdir.

Oronimlər Azərbaycanda əhalinin əksəriyyətini təşkil edən türk xalqlarından olan azərbaycanlıların və müxtəlif Dağıstandilli (udinlər, avarlar, ləzgilər, xınalıqlar, qrızlar və s.) və İrandilli (talışlar, tatlar və kürdlər) azsaylı xalqların dilində leksik vahidlərdən ibarət olduqlarına görə xalqımızın müxtəlif tarixi dövrlərdə etnik təşkili məsələlərinin araşdırılması üçün mənbə roluna malikdir. Bununla əlaqədar olaraq xüsusi ilə qeyd etmək lazımdır ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiasının əsassızlığını göstərən faktlardan biri də məhz oronimlərdir. Azərbaycan ərazisində, o cümlədən, Dağlıq Qarabağda erməni dili əsasında yaranmış bir dənə də olsa belə oronim — dağ adı yoxdur.

Azərbaycan paleotoponimiyası qədim türk leksik-semantik elementləri ilə zəngindir. Belə leksik vahidlərin müxtəlif növ obyekt adlarının tərkibində mühafizə etdikləri arxaik məna çalarlarını isə həm qədim türk abidələri və qohum türk dilləri materialları əsasında, həm də coğrafi obyektin özünün bilavasitə müəyyən səciyyəvi cəhətlərini nəzərə almaqla müəyyənləşdirmək, bərpa etmək mümkündür. Faktlar göstərir ki, həmin vahidlər iki və çox komponentli yer adlarının yalnız ikinci komponenti yerində işlənərək, adlarını daşıdıqları müxtəlif obyekt növlərinin yerləşdiyi sahənin həcmini, böyük və ya kiçikliyini, hündür və ya alçaqlığını, dərin və ya dayazlığını, obyekt suxurlarının rəngini, suyun keyfiyyətini və s.

müəyyənləşdirmək vəzifəsini yerinə yetirir. Göstərilən topokomponentlər bir sıra yer adlarında müasir Azərbaycan dili və onun dialekt və şivələri üçün səciyyəvi olan rəng mənasında işləndiyi halda, böyük bir qrup coğrafi adlarda isə arxaik sayılan, bəzən isə yalnız daşlaşmış ifadələrin tərkibində saxlanan bir sıra başqa mənalar da daşıyır.[21]

Müasir türk dillərində, eləcə də dialekt və şivələrdə relyefin ən xırda elementlərini ifadə edən sözlər – coğrafi terminlər vardır. Məsələn, müasir türk dillərində ümumiyyətlə, müsbət relyef formalarının adları kimi *dağ* (*tağ*) və *too* (*tuu, tau*) və *təpə* sözləri ilə yanaşı, həmin bu obyektlərin xırda hissələrinin adlarını bildirən *aduş, alaşar, aran, art, bair, bək, ik, ir, yazı, kəpəz, gömür* və b. sözlər də vardır.[22] Azərbaycan dilində bu sözlərin çoxu yoxdur, lakin dağ, təpə, qaya və b. oroqrafik obyekt adlarında həmin sözlərin, demək olar ki, hamısı daşlaşıb qalmışdır. Məsələn, qədim türk dillərində suvarıla bilməyən yüksəklik *adur* (*adir*) adlanırdı. Quba rayonundakı Adur kəndi də məhz dağlıq massivdə yerləşir. Deməli, kəndin adı coğrafi relyefin xüsusiyyəti ilə, təpəlik yaylada yerləşməsi ilə əlaqədardır. *Adur yamacı* (Quba rayonu), *Adur güneyi* (Xocavənd rayonu) və s. oronimlərdə *adur* sözü iştirak edir. Bəzi türk dillərində *bay* (*bəy*) «varlı», «feodal» mənasındadır. Azərbaycandakı bəzi oronimlərdəki, yəni dağ adlarındakı bay hissəciyi də məhz həmin sözlə mənşə birliyinə malikdir. Şərur rayonundakı Axura kəndindən şimalda yerləşən *Baysal* dağının adında *bay* hissəciyi qədim mənasını qoruyub saxlamışdır. Respublikamızın ayrı-ayrı bölgələrində müşahidə edilən *Baytal dərəsi* (Zəngilan rayonu), *Baylık dərəsi* (Tərtər rayonu) və digər oronimlər öz tərkibində “varlı, dövlətli, hörmətli” mənasında olan *bay* sözünü bu gün də qoruyub saxlayırlar. Azərbaycan oronimiyasında rast gəlinən *yazı* sözü qədim türk dilində, eləcə də orta əsrlər türk yazılı abidələrinin dilində “çay və dəniz kənarı çöl”, «düzən» mənasındadır.[23] *Ağyazı* və *Qarayazı* (Qubadlı rayonu), *Ağyazı*, *Yazı düzü* (Zəngilan rayonu) və s. toponimik adlardakı *yazı* sözü qədim xalq coğrafiya terminlərindən biri olmaqla bir çox türk dillərində indi də işlənir.

*Azərbaycan paleooronimlərinin mənşə xüsusiyyətləri.* Respublikamızın oronimiyasının yaranmasında Azərbaycanın etnik tərkibinin də rolu böyük olmuşdur. Azərbaycan oronimiyasının yaranmasında, əsasən, türk xalqlarından olan azərbaycanlılar iştirak etmişdir. Bununla belə, burada etnik tərkib əsas faktor kimi də öz əksini tapmışdır. Bunu Azərbaycan oroni-

---

[21] Əhmədov T. Azərbaycan paleotoponimiyası. Bakı: ADU nəşriyyatı, 1985, s. 67.

[22] Məmmədov N. Azərbaycan Respublikasının oronimləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 1999, s. 36-37.

[23] Древнетюркский словарь, Ленинград: Наука, 1969, s. 251.

miyasındakı türk mənşəli, Qafqaz mənşəli, fars mənşəli və digər xalqların dillərində olan oronimlərdən də görmək mümkündür. Azərbaycan oronimiyasında bu ərazidə məskunlaşan Dağıstan xalqlarının, o cümlədən ləzgilərin, habelə İrandilli talışların və tatların dillərinə məxsus oronimlər vardır.

a) türk mənşəli oronimlər. *Barmaq dağı* (Qubadlı rayonu), *Bum dərəsi* (Qəbələ rayonu), *Adur təpə* (Quba rayonu), *Qaraquzey* (Gədəbəy rayonu) və s. Bunlarla yanaşı, *Ağaləri, Boyat, Qanlı, Qapan, Qıpçaq, Türkəş, Tuq, Xəzər* və s. türk tayfa adları ilə bağlı oronimik adlar da var;

b) İrandilli oronimlər. *Səngəçal — Sanqaçal dağı, təpəsi* (Qaradağ rayonu), *Girdəbad dağı* (Quba rayonu), *Sanqalan* (İsmayıllı rayonu), *Patamdar qəsəbəsi* (Bakı şəhəri), *Dartəpə təpəsi* (Ordubad rayonu) və s.

Azərbaycan ərazisində məskunlaşan etnik qrupdan biri də tatlardır. Tat dilində aşağıdakı oronimlər qeydə alınmışdır: *Qirdağ* "dairəvi dağ" (Abşeron rayonu), *Varafta* "güney dağ" (Abşeron rayonu), *Dahardağ* "qaya dağ" (İsmayıllı rayonu), *Paradahor* "para qaya" (Quba rayonu), *Şirədahor* "şirəli qaya" (Quba rayonu), *Təngə dərəsi* (Quba rayonu) və s.

c) Dağıstandilli oronimlər. *Oxaxdərə, Cimeima Qaysa, Kalal, Silban, Solban* və s. toponimik adlar Dağıstandakı *Axvax, Tsinsimax, Kaisi, Maxama, Qandax* və s. kənd adları həmin kəndlərdən Azərbaycan ərazisinə köçmüş əhalinin həmin adları köçdükləri yerə gətirmələri nəticəsində yaranmışdır. Eynilə ləzgilərin məskun olduqları Bılıx, Lizik, Lirik, Böyük Muruq, Muxuraba və b. kəndlər Dağıstanın Bulux, Lizix, Lirıx, Muruq, Xarax və s. kəndlərindən gələn ailələrin müxtəlif vaxtlarda köçüb məskunlaşması və əvvəlki kənd adlarını özləri ilə gətirmələrinin nəticəsidir.

ç) Ləzgidilli oronimlər. Azərbaycan ərazisində ləzgi dili əsasında düzəlmiş makrooronim yoxdur. Bu dildə ləzgilərin məskun olduqları kəndlərin ərazilərində relyefin kiçik mikroobyekt hissələri və cüzi sayda şəxs adlarından ibarət olan mikrooronimlər qeydə alınmışdır.[24] Məsələn: *Kürkün* "yüksəklik, təpə adı" (Quba rayonu), *Yarısuval* "yarım qırmızı" (Qusar rayonu).

d) Rus mənşəli oronimlər. XIX əsrin başlanğıcından etibarən Muğan düzünə, Quba və Cavad qəzasına 200-ə qədər rus kəndləri köçürüldü. Azərbaycan ərazisində *Alekseyevka, İvanovka, Saratovka, Mixailovka* və s. kənd adları bu zamandan ortaya çıxdı. Bir çox kənd adları dəyişdirilərək rus kənd adları ilə əvəz olundu. *Kruqlay qora* (Quba rayonu), *Popov ovraq* (Goranboy rayonu), *Vasılyev buqor* (Şamaxı rayonu) və s. yüzlərlə belə «adlar» yarandı.

---

[24] Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları, I cild, Bakı: Nurlan, 2004, s. 50-57.

e) Talışdilli oronimlər. *Siyaband dağı* (*siya* «qara»), *Ağabalaband* (Lerik rayonu), *Ambudimə yamacı* (*dimə* "yamac") (Lerik rayonu) və s.

Azərbaycan oronimiyasında mənşəyi məlum olmayan oronimlərə də rast gəlmək mümkündür. Bu oronimlərdən biri Şirvan düzü ilə Pirsaat çayı vadisində yerləşən *Ləngəbiz* oronimidir. Qusar rayonu ərazisində *Ləngəbiz dərə* və Lənkəran-Astara zonasında *Ləngəbiz dağ* adları vardır. Hər üç oronim fars dilində *ləng* «vadi», «çökəklik» və mənası aydın olmayan *biz* sözlərindən ibarətdir. *Ağarlıca dağ* (Quba rayonu), *Eserti dağı* (Dəvəçi rayonu), *Koşbərə dərəsi* (Qax rayonu) və s. oronimlərin də mənşəyi məlum deyil. Dissertasiyada *Abşeron, Acıdərə, Ağdağ, Ahudağ, Alaciki, Beşbarmaq, Beşyataq, Gilov, Danaqırançöl, Diridağ* kimi oronimlərin etimologiyası üzərində ətraflı dayanılmışdır. İnsan təfəkkürünün məhsulu olan oronimlərin yaranması milli və mənəvi sərvət olub, maddi həyat tərzinin təzahürüdür. Oronimlər Azərbaycan ərazisində məskunlaşan xalqların dili, tarixi, adət-ənənələri, təsərrüfat həyatının sosial-coğrafi mahiyyəti baxımından öyrənilməsi çox əhəmiyyətlidir, qiymətli mənbədir.

*Azərbaycan paleooronimlərinin relyef formalarına ad verməyə görə nominativ təsnifatı.* Azərbaycan oronimiyası aşağıdakı xarakterik cəhətlərinə görə təsnif etməyə imkan verir: spesifik oronimlər, metaforik oronimlər, etnonimik oronimlər, patronimik oronimlər, antroponimik oronimlər, oykonimik oronimlər, hidronimik oronimlər, zoonimik oronimlər, fitonomik oronimlər.

*Spesifik oronimlər.* Spesifik oronimlər əlamətlərinə, relyef formasına, hündür və alçaqlığına, bitgi örtüyünə, sayına və s. görə adlandırılır. Müq. et: *Bozqaya, Bozdağ, Bozyal, Ağ yal* və s. *Keçəl yal, Təkbir dağı, Qoşadərə* və s. Oroqrafik obyektlərdən bir qrupu ərazisindən və yaxınlığından axan çayın, suyun, kanalın suyunun dadını (acı, şor yaxud duzlu olmasına) əks etdirir. Məsələn, *Acıdərə, Duzlu qobu, Acıdərə dağı* oronimlərinə bu adlar həmin dərədən axan Acısu çayının adını əks etdirməsinə görə verilmişdir.

Azərbaycan tarixən etnik tərkibinin müxtəlifliyi ilə fərqlənən ölkələrdən biridir. Respublikamızın oronimiyasında müxtəlif tarixi dövrlərdə məskun olmuş etnosların və tayfaların adını əks etdirən etnonimik oronimlər vardır. Qədim və orta əsr mənbələrində Şimali Azərbaycan ərazisini əhatə etmiş Qafqaz Albaniyasında *Alban, Hun, Çul, Şirak, Şirvan* və başqa tayfaların yaşadığı qeyd olunmuşdur.[25]

*Patronimik oronimlər.* Patronimik oronimlər müxtəlif tayfalara mənsub nəsil və tirə adlarını əks etdirən oroqrafik adlardır. Patronim dedikdə

---

[25] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991, s. 17.

şəxs adlarından və ona qoşulan cəm, ya da mənsubiyyət bildirən şəkilçilərdən yaranmış nəsil və tirə adları nəzərdə tutulur. Patronimik oronimlərin yaranması da keçmişdə əhalinin müəyyən hissəsinin maldarlıqla məşğul olması, yaylaq və qışlaqlardan istifadə etməsi ilə əlaqədardır. Hər bir nəsil və tirə müəyyən ərazidə qışlayır və eyni ərazidə yayı keçirdiyinə görə onun yaşadığı ərazi də onun adı ilə adlandırılmışdır. Hər bir nəsil və tirə müəyyən tayfanın xırda, kiçik qolundan ibarətdir və bunların hər birinə aid oronimlər var. Oronimlərdə əksini tapmış patronimlərin əksəriyyətinin hansı tayfaya mənsub olmasını müəyyən etmək mümkün deyildir. Patronimik oronimlər etnonimik oronimlərə nisbətən çoxluq təşkil edir. Belə oronimlərə misal olaraq *Alxaslı dağı* (Laçın rayonu), *Bayramlı təpəsi* (Cəbrayıl rayonu) və s. onomastik vahidlərini nümunə göstərmək olar.

*Antroponimik oronimlər.* Azərbaycan oronimiyasında şəxs adları əsasında düzəlmiş müsbət və mənfi relyef formalı coğrafi obyekt adları mühüm yer tutur. Bu oronimlərin əksəriyyəti mikrooronimlərdir. Mikrooronim əsas etibarilə keçmiş feodal zümrəsinə mənsub adamların, bəy və mülkədarın malikanələri, onlara məxsus yaylaq və qışlaq adları əsasında yaranmışdır. Başqa sözlə, oronimlərin bu hissəsi xüsusi mülkiyyətin məhsulu olmaq etibari ilə keçmişdə bu və ya digər oronimik ərazidən müxtəlif təsərrüfat sahəsi məqsədi ilə (biçənək, əkin yeri, örüş və s.) istifadə edilməsi ilə əlaqədar yaranmışdır. Ona görə də bu qrupa aid mikrooronimlər əsasən mənsubiyyət bildirən sonluqlarla (şəkilçilərlə) bitirlər: *Məmmədli dərəsi* (Masallı rayonu), *Əhməd çalası* (Qubadlı rayonu) kimi yüzlərlə belə nümunələrin adını çəkmək olar.

*Hidronimik oronimlər.* Hidronimik oronimlər əsasən su mənbələrini, onların növlərini (göl, çay, nohur, kanal, arx, bulaq və s.) bildirən sözlərlə müsbət və mənfi relyef formalarını bildirən sözlərin birləşməsindən yaranmışlar. Digər qrup oronimlərdən fərqli olaraq bu qəbil oronimlərlə hidronimlər arasında ikili münasibət vardır. Bir tərəfdən hidronimlər oroqrafik obyektlərin adlarını əks etdirirlər, digər tərəfdən isə oronimlər oradakı su mənbələrinin (çay, nohur, bulaq, göl və s.) adları ilə adlanırlar.[26] Oronimlərlə hidrooronimlər arasındakı qarşılıqlı münasibət başqa türk xalqlarının toponimiyası üçün də səciyyəvidir. Digər türk xalqlarının toponimiyasında olduğu kimi qırğız toponimiyasında da müxtəlif kateqoriyalı coğrafi obyekt adlarının sıx bağlılığı xarakterikdir. Məsələn, dağ və çay, yaxud da çay və

[26] Məmmədov N. Azərbaycan Respublikasının oronimləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, s. 90.

aşırım[27] adlarının tərkibində *qobu* sözü olan hidronimlərdən yaranmış oronimlər bunu aydın şəkildə göstərir. Bu qrupdan olan oronimlər əsasən mənfi relyef formalı obyektlərdir. Müq. et: *Şor su qobusu* (Qaradağ rayonu).

*Fitonimik oronimlər.* Yer kürəsinin bitki örtüyünün əksər tiplərinə (növlərinə) respublikamızda təsadüf olunur. Burada ovalıqlardan başlamış yüksək dağ zirvələrinə qədər müxtəlif bitki qurşaqları bir-birini əvəz edir. Ərazimizdə olan müxtəlif bitki növlərinin əksəriyyəti Azərbaycan oronimiyasında öz əksini tapmışdır. Onları müxtəlif qruplara bölmək olar: Ağac növləri əsasında yaranan oronimlər: *Ardıcblı dağ, Söyüdlü quzey* (Qubadlı, Kəlbəcər, Gədəbəy rayonları). Meyvə ağacı növlərini bildirən sözlərdən düzələn oronimlər: *Almalı dağ* (Şəki rayonu) və s. Taxıl, ot, bitki adlarından düzələn oronimlər: *Arpa dərəsi* (Ağdam rayonu) və s.

*Zoonimik oronimlər.* Azərbaycanın mürəkkəb fiziki-coğrafi şəraiti, relyefi, bitgi örtüyü ilə yanaşı zəngin heyvanlar aləmi də vardır. Qədim türk tayfaları içərisində *İlan, Karğa, Kuyerçin, Kurt* (Qurd), *Kuşi* (Quşçu), *Tana* və başqa adları daşıyan tayfalar olmuş və onların müəyyən hissələri müxtəlif tarixi dövrlərdə Azərbaycanda məskunlaşmışlar. *Danaçı* (Zaqatala rayonu), *Qarğalıq* (Masallı, Şərur, Xaçmaz rayonları), *Quşçu* (Daşkəsən, Qazax, Tovuz, Qobustan və Yevlax rayonları), *Göyərçinli* (Cəbrayıl rayonu), *Qurdlar* (Bərdə rayonu), *İlanlı* (Qobustan rayonu) kənd adları məhz həmin tayfaların adlarını əks etdirir. Lakin Azərbaycan toponimiyasında *dana, qarğa, quş, göyərçin, qurd, ilan* və başqa heyvan adları ilə bağlı *Danaqıran dağı, Qarğalı təpə, Quş təpə, Göyərçin təpəsi, Qurdqobu, İlandağ* oronimləri də vardır. Ona görə də oronimlərdə bəzi tayfa adları ilə heyvan adlarını ayırd etmək üçün bir qədər diqqətli olmaq lazım gəlir. Eynilə qədim türk mənşəli *Kazan*, *Kanlı* tayfa adları ilə bağlı etnotoponimlərlə *Qazangöz dağı, Qanlıdərə, Kotan örüşü* oronimləri zahiri oxşarlığa malikdir. Heyvan və quş adları müsbət və mənfi relyef formaları coğrafi obyektlərdə əks olunmaqla zoonimik oronimlər yaranır.

Ev heyvanları ilə bağlı yaranmış oronimlər azlıq təşkil edir. Bunlara *at, dəvə, inək, buğa, keçi, öküz, dana, qatır* və s. Bu baxımdan demək olar ki, oroqrafik obyektlərin bəziləri ev heyvanlarının adlarını əks etdirir: *At ağılı dərəsi* (Qubadlı rayonu), *Atuçan qaya* (Tovuz rayonu).

Qədim insanlar coğrafi cəhət, səmt və bənzətmə (oxşatma) üsullarından istifadə etməklə coğrafi terminlər yaratmışlar. Belə coğrafi terminlərə *dağ, yal, şiş yamac, gədik, güney, quzey, qaya, təpə, sırt, taxta, yoxuş, dik,*

---

[27] Никонов В.А. Заметки по оронимии Киргизии // Ономастика Средней Азии, Москва, 1978, s. 91.

*yasamal, bazı, üst* və s. sözləri nümunə göstərmək olar. Bunlardan bəzilərinin semantik mənaları haqqında qısa məlumat vermək istərdik.

III fəslin ikinci yarımbölməsi "**Azərbaycan paleohidronimlərinin linqvistik təhlili**" adlanır. *Azərbaycan paleohidronimlərinin bəzi xarakterik xüsusiyyətləri.* Dünya xalqlarının mifologiyasında insanlar tərəfindən ilahiləşdirilmiş obyektlərin əsil adının çəkilməsinə qoyulmuş tabu (yasaq) müqəddəs sayılan çayların, göllərin ikinci dərəcəli (qeyri-əsas) adlarının yaranmasına yol açmışdır. Türk xalqları mifologiyası və folklorunda su hövzələrinin hər hansı heyvan (çox vaxt totem) adı ilə bağlı olduğunu göstərilir. Dil və onun daşıyıcılarının tarixini, tarixi coğrafiyasını, hər bir ölkənin hidronimləri mürəkkəb tarixi inkişafın nəticəsidir və çeşidli qədimlik dərəcəsinə malik dövrlərə aid müxtəlif mənşəli qatlardan ibarətdir. Bunların bəziləri dialekt materialları əsasında yaranmışdır və bu hidronimlərin mənaları dialekt materialları əsasında açılır. Məsələn, *Temsəçayı* hidronimini buna nümunə göstərmək olar. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrinə daxil olan Ayrım şivələrində *temsə* sözü «kötük» mənasında işlənir. Yəni *Temsəçayı* hidroniminin mənası "kötüklü çay" (daşlı çay kimi nəzərdə tutulur) deməkdir. Bəzi hidronimlər isə su hövzəsinin forma və ölçüsü ilə əlaqədardır. Məsələn, *Qazan göl, Güzgü göl* və s.

Elə hidronimlər də var ki, onlar meşələrdə və çay sahillərində yaşayan quş və heyvanların adları ilə bağlı yaranmışdır. Məsələn, *Ördək göl, Camış gölü* və s. Antroponim, təxəllüs və ləbqəblərin iştirakı ilə yaranan hidronimlər də mövcuddur. Müq. et: *Həsən suyu, Həsən çay* və s.

Hidronimlərin yaranma tarixi çox qədimdir. Tayfa, qəbilə ərazilərini adlandırmaq ehtiyacı ilə bağlı bir sıra yerlər tayfa və qəbilə adları əsasında yaranmışdır. Məlumdur ki, su hövzələrinə ad birinci növbədə onun sahilində yaşayan xalq tərəfindən verilir. Etimioloji cəhətdən maraqlı olan çay adları haqqında danışarkən ilk növbədə nəzərə almaq lazımdır ki, uzaq keçmişdə insanlar çaya çox zaman sadəcə olaraq *su* demişlər. Tədqiqatçıların fikrincə, Kür, Don, Dunay, Volqa, Araz və s. çayların adları ilkin dövrlərdə "su" mənasında işlənmişdir. Bəzi çay adları isə sahilində yerləşdikləri şəhər, kənd, qəsəbə və s. adları əsasında formalaşır. Məsələn, *Qudyalçay* öz adını Quba şəhərinin adından, *Dəvəçiçay* Dəvəçi şəhərinin adından, *Şabrançay* isə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olmuş Şabran şəhərinin adından almışdır. Azərbaycanın bir sıra hidrooronimlərinin, əsasən çay adlarının ikinci komponenti yerində «çay» mənasında olan *su* sözünün işlənməsinə tez-tez rast gəlinir. Müq. et: *Ağsu.* Ağsu və Kürdəmir rayonlarından axan çayın adı; Qax rayonunda çay adı; *Qarasu.* Zaqatala rayonundakı Qanıx (Alazani) çayının qolu və s. Bu qəbildən olan paleooro-

nimlərdən biri də Alazani çayına axıb tökülən Qabırrı çayının adıdır (Bu çayın digər adı İoridir). *Qabırrı* (*Qabırlı*) hidroniminin tərkibində sözün əsasını təşkil edən *qabır* leksimi aydın görünür. Cığataq ləhcəsində «səs-küy salmaq, gurultu qoparmaq, coşmaq, şiddətlənmək» mənasında *kabur-* sözünün işləndiyi qeydə alınmışdır.[28] Fikrimizcə, *kabur-* sözü qədim dövr Azərbaycan ərazisində fəaliyyət göstərən dialekt (dil) eleimentlərindən biri kimi təqdim edilə bilər. Görünür, çaya «səs-küylü, qurultulu» mənalı *kabur sözü* onun səciyyəvi cəhətinə görə verilmişdir. Türk xalqlarında çayların göstərilən cəhətinə görə adlandırılması tarixən xarakterik olmuşdur.

Tərkibində *çay, su, göl, bulaq, dəniz, arx, bataqlıq, quyu* və s. sözlər işlənən hidronimlər xalis Azərbaycan sözlərindən ibarətdir. Bu ümumi cəhətdən (məlumatdan) sonra bəzi hidronimik vahidlərin mənşəyi və semantikası barədə bir qədər genişliyi ilə danışmaq istərdik.

*Azərbaycan paleohidronimlərinin mənşə xüsusiyyətləri. Türk mənşəli hidronimlər.* Hidronimlərin etimioloji təhlilində qədim dil elementlərini, tarixi məlumatları dəqiqləşdirmək, habelə tayfa və qəbilə adlarını aşkar etmək məqsədi güdülür. Məsələn, *Albançay, Tərtərçay, Qarqarçay, Bolqarçay, Qıpçaqçay* və digər hidronimlərdə tarixən Azərbaycan ərazisində yaşamış xalq və tayfaların adı daşlaşmış şəkildə qorunub qalmışdır. Türk mənşəli hidronimlərdən Qanlıgöl, Oxçuçay kimi hidronimlər də tədqiqata cəlb olunmuşdur.

*Qeyri-türk mənşəli hidronimlər.* Dil mənsubiyyətinə görə qruplaşdırma apararkən Azərbaycan ərazisindəki su obyektlərinin adını bildirən sözləri — hidronimləri müxtəlif qruplara bölmək olar. Burada biz *Vəlvələçay, Gilgilçay, Vov çayı, Vov suyu, Vov dərəsi, Vov yamacı, Vov quzeyi, Vov güneyi, Həməşərəçay. Mişarçay, Atəşi//Ataşı, Babazənən, Qudyalçay, Biləsuvarçay, Boradigah* kimi hidronimlərin dil mənsubiyyətindən söhbət açmağı daha məqsədəuyğun hesab etmişik.

*Mənşəyi məlum olmayan hidronimlərdən – Bist, Əlləhi, Ərdəşəvsu, Vəndam, Viravul, Viləş, Qalada, Qəleyli, Əlican, Zoğalava // Zoğalavay, Gavurarx* kimi hidronimlər tədqiqata cəlb olunmuşdur.

**"Nəticə"**də tədqiqatın yekunu olaraq əldə edilmiş elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır**:

1. «Bir erkən Ortaçağ türk nəsli barədə / XII Türk tarix konqresi. Ankara. «Bildiri özetleri» 12 – 16 iyul, 1994, s.75- 76

[28] Радлов В.В. Опыт словаря тюркских наречий, т. II, СПб., 1894, s. 456.

2. Bəzi erkən orta əsr türk mənşəli adlar // Azərbaycan onomastikası problemləri. Bakı, 1995, s. 47-49

3. Azərbayjan etnosları, Əhəmənilər dövründə // Qafqaz və Mərkəzi Asiya Beynəlxalq Araşdırmaları İnstitutu. Bakı: Elm, 1995, s. 47-48

4. Azərbayjanın bəzi qədim hidronimləri barədə / Novruz bayramına həsr olunmuş elmi konfransın materialları. Bakı, 1996, s. 58-60

5. Joğrafi adlar və onların tədqiqi əhəmiyyəti barədə qeydlər // AMEA, «Tədqiqlər-3», Bakı, 2004, s. 246-249

6. Türk mənşəli oykonimlər // AMEA. «Dilçilik məsələləri», Bakı, 2005, s. 266-271

7. Qeyri-türk mənşəli oykonimlər // «Filologiya məsələləri» №6, 2008, s.49-54

8. Azərbayjan toponimlərində türk mənşəli hidronimlər // «Filologiya məsələləri» №8, 2009, s. 421-432

9. Toponimik tədqiqatın xarakteri // Dil və ədəbiyyat, 2011, № 3 (79), s. 76

10. Toponimik tədqiqatın xarakteri / AMEA Şərqşünaslıq İnstitutu, Beynəlxalq elmi konfrans, 2011, 1-2 iyun, s.277

11. Bir neçə türk mənşəli hidronim haqqında / İqtisad Universiteti

12. Ойконимы тюркского происхождения // Вестник Томского государственного педагогического университета (Tomsk State Pedagogical University Bulletin)., 2013, Вып. 3 (131), с. 106-111

13. Aslı belli olmayan coğrafi adlar / 12.Uluslararası Türk Dünyası Sosyal Bilimler Koqresi, Kazan – Tatarstan, 2014, 30 avqust, s. 1057-1061

14. Azərbaycan toponimlərində türkmənşəli paleooronimlər / Uluslararası Türk Dünyası Sosyal Bilimler Koqresi, 2015, 28 ekim

**Н.Ю.Юсифова**

# ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ПАЛЕОТОПОНИМОВ АЗЕРБАЙДЖАНА

Диссертация, посвященная систематическому исследованию палеотопонимов Азербайджана, состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В «Введении» традиционно обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость исследования, даются сведения о целях, задачах, методах, источниках исследования, об апробации и структуре диссертации.

Первая глава диссертации называется «Актуальные проблемы палеотопонимов Азербайджана». В этой главе к исследованию привлекаются история исследования и перспективы изучения палеотопонимов Азербайджана, делаются исторические экскурсы, рассматриваются древние источники, труды, в которых упоминаются топонимы. В частности, отмечается, что среди палеотопонимов, функционирующих в современной системе азербайджанских топонимов, встречаются элементы, относящиеся к различным ярусам языков древнетюркских родов и племен. Здесь выявляется роль фонетических, лексических и грамматических элементов древнетюркского языка. Древнетюркский лексический слой, сохранившийся в палеотопонимах, способствует образованию новых топонимов Азербайджана.

Вторая глава называется «Лингвистический анализ палеоойконимов Азербайджана». Здесь на основе научно-теоретического материала анализируются ойконимы тюркского происхождения на территории Азербайджана, прослеживается история формирования азербайджанского языка, дается этимологический и структурно-семантический анализ наиболее интересных ойконимов. Анализ показал, что изучение ойконимов тюркского происхождения представляет большой научный интерес в лингвистическом, историческом, географическом и этнокультурологическом аспектах.

Третья глава называется «Лингвистический анализ палеооронимов и палеогидронимов». В этой главе изучаются характерные особенности палеооронимов и палеогидронимов Азербайджана. Сравнительно-исторический анализ палеооронимов позволил квалифицировать их на гидронимические, ойконимические, зоонимические, фитонимические и др. оронимы. Этимологический анализ палеогидронимов показал, что гидронимы сохранили следы древнетюркского языка, большинство из них тюркского происхождения.

В «Заключении» обобщаются основные результаты и выводы исследования.

**N.Y.Yusifova**

# THE LINGUISTIC ANALYSIS OF AZERBAIJANIAN PALEOTOPONYMS

The dissertation is devoted to regular research of Azerbaijanian paleotoponyms, consists of “Introduction”, three chapters, “Conclusion” and bibliography.

In “Introduction” are substantiated the urgency of subject, scientific novelty, theoretical and practical significance of the research, is given the information about the main purpose and tasks, methods, sources of the research, approbation and structure of the dissertation.

The first chapter of the dissertation has called “Actual problems of Azerbaijanian paleotoponyms”. In this chapter the history of research and studying prospect are involved in research of Azerbaijanian paleotoponyms, historical digressions become, ancient sources, works in which are mentioned топонимы are considered. The toponyms mentioned in the ancient sources, works are studied, It is emphasized that there are quite a lot of elements among the paleotoponyms functioning in the modern system of Azerbaijanian toponyms and such elements are related to the different layers of the languages of the ancient Turkic clans and tribes. Here the role of phonetic, lexical and grammatical elements of ancient Turkic language comes to light. The ancient Turkic lexical layer which has remained in paleotoponyms, promotes formation new Azerbaijanian toponyms.

The second chapter of the dissertation has called “The linguistic analysis of Azerbaijanian paleooikonyms”. Here historical excursus makes it possible to trace formation and development of the Azerbaijanian language, deals with oikonyms of Turkic origin on the territory of Azerbaijan that are analysed on the basis of scientific-theoretical and factual material. The analysis has shown, that studying ойконимов a Turkic origin represents the big scientific interest in linguistic, historical, geographical and ethnocultural aspects.

The third chapter of the dissertation has called “The linguistic analysis of Azerbaijanian paleohidronyms”. In this chapter prominent features paleooronyms and paleohidronyms are studied. The comparative-historical analysis of paleooronyms has allowed to qualify them on hidronyms, oikonyms, zoonyms, fitonyms, etc. оронимы. The etymological analysis paleohidronyms has shown, that hidronyms have kept traces of ancient Turkic language, the majority of them of a Turkic origin.

In “Conclusion” are generalized the main principles and results of the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ЮСИФОВА НАИЛЯ ЮСИФ гызы**

# ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ПАЛЕОТОПОНИМОВ АЗЕРБАЙДЖАНА

**5706.01 – Азербайджанский язык**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**Баку - 2016**